Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Könüllərin Dan ulduzu - Gülarə Əliyeva

Gülarə Əliyevanın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı – 2023

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Könüllərin Dan ulduzu - Gülarə Əliyeva :** Gülarə Əliyevanın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Aynurə Əliyeva ixt.red. və burax.məsul Ş. Qəmbərova. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2023. - 17 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Tərtibçidən

Bu gün yaşadığımız cəmiyyəti, həyatımızın hər hansı bir hissəsini qadınlarsız təsəvvür etmək mümkün deyil. Təqvimdə bir əsrdən artıq tarixi olan Beynəlxalq Qadınlar Günü də xanımların cəmiyyətdə, o cümlədən mədəniyyət və incəsənətdə yerinə, roluna diqqət yetirmək üçün daha bir fürsətdir. Qadınlar öz qüdrət və bacarıqlarını istər siyasət, ər meydanında, istər ədəbiyyat, incəsənət və s. sahələrdə yetərincə nümayiş etdirmiş, hətta öz adlarını tarixin şanlı salnamələrində həkk etdirmişlər. Bəli, ayrı-ayrı dövrlərdə tarixə iz qoyan qadınların sayı günü-gündən artmaqda, çoxalmaqdadır. Qeyd etdiyimiz kimi, digər sahələrdə öz sözünü deməyi bacaran Azərbaycan qadını incəsənətdə-musiqi dünyasında da silinməz izlər qoymuş, Azərbaycan sənətinə, eləcə də bəşəriyyətə silinməz izlər, təkrarsız töhfələr qoyub getmişlər. Neçə il ömür sürmələrindən asılı olmayaraq, onlar bizim sönməyən ulduzumuza çevrilmişlər. Azərbaycan səmasının əbədiyaşar ulduzlarından biri - Gülarə Əliyevanın bu 90 illik yubileyidir. Bu münasibət ilə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Dan ulduzundan düşən işıq"* adlanır və onun həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Əliyeva Gülarə Əziz qızı 17 noyabr 1933-cü ildə Bakıda anadan olub. 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Səid Rüstəmov adına xalq çalğı alətləri orkestrində, eləcə də Ə.Dadaşov adına xalq çalğı alətləri ansamblında çalışmışdır. 1966-cı ildən özünün təşkil etdiyi "Dan ulduzu" instrumental ansamblının rəhbəri idi.

Eyniadlı muğamlar əsasında "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir; ansambl üçün bir sıra xalq mahnısını aranje etmişdir. Ansambl ilə Əlcəzair, Suriya, Livan, Anqola, İtaliya, Bolqarıstan, Efiopiya, İsveçrə, Hindistan, Finlandiya və s. xarici ölkələrdə çıxış etmişdir. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmiş, 1966-1988 illərdə musiqi nəzəriyyəsi kafedrasının müdiri olmuşdur. "Dan ulduzu" ansamblına onun adı verilmişdir.

1991-ci ildə həyat yoldaşı, kulturoloq Adil Adilovu Moskva klinikasına müalicəyə yola salarkən kiçik qızı Nuridə və "Dan ulduzu" ansamblının istedadlı violonçelisti Minirə ilə birgə eyvana çıxır və köhnə eyvanın uçması nəticəsində həlak olur.

Gülarə Əliyeva oftalmoloq Zərifə Əliyeva, endokrinoloq Tamerlan Əliyev, onkoloq Cəmil Əliyevin bacısı, həkim Əziz Əliyevin qızı, Ümummilli lider Heydər Əliyevin baldızıdır.

Azərbaycan musiqiçisi, pianoçu, Gülarə Əliyevanın anadan olmasının 90-illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə və s. keçirilə bilər.

Əməkdar incəsənət xadimini sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisinin təşkili məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Gülarə Əliyevanı xatırlayarkən", "Dan

ulduzu-Tale ulduzu”, “Daima təzə-tər melaodiyalar”, “Qızıl fondun bəzəyi”, “İlıq bir təbbəssümlə mahnılar bəstələyən qadın”, “Dan ulduzundan düşən işıq”, “Barmaqları ilə möcüzələr yaradan qadın”, “Arzusu, niyyəti təmiz qadın”, “Könüllərin Dan ulduzu - Gülarə Əliyeva”, “Qadınlar musiqidə”, “Musiqi kəhkəşanında qəfil parlayan “Dan ulduzu”” və s.

**Görkəmli şəxsiyyətlərin Gülarə Əliyeva haqqında söylədikləri :**

İsveç mətbuatının yazdığı və həmvətənlərimizin də fəxarətlə söylədikləri kimi, Gülarə xanımın virtuoz ifası, “Dan ulduzu” nu böyük ustalıqla idarə etməsi, ifaçıların məharəti və səhnə mədəniyyəti, səsləndirilən əsərlərin zəngin bədii - estetik səviyyəsi İsveç tamaşaçılarını heyrətə salmışdı və Azərbaycanın bu ölkədə informasiya blokadasını dağıtmasında ölkəmiz haqqında təsəvvürün yaranmasında konkret olaraq Gülarə Əliyevanın ciddi xidmətləri vardır.

**Elçin,**
*Xalq yazıçısı*

Gülarə xanımın ansanbılı əsl məktəb idi. Neçə - neçə müğgənniyə yol göstərən, neçə-neçə bəstəkarın yaradıcılıq yoluna işıq salan tarixi missiyasına uyğun bir ömür yaşayan, özünəməxsus dəsti-xətti olan bir məktəb.

**Zərifə Bəşirqızı,**
*“Xalq qəzeti” müxbiri*

Azərbaycan incəsənəti məktəbinin tanınmış nümayəndəsi, Azərbaycan əməkdar incəsənət xadimi, Azərbaycan musiqiçisi, pianoçu, sənətşünaslıq elmləri namizədi, Azərbaycan SSR əməkdar incəsənət xadimi Gülarə Əliyevanın yubileyi münasibəti ilə kitabxananın oxu zalında **"Gülarə Əliyevanı xatırlayarkən"** adlı *dəyirmi masa* keçirilir. Tədbirdə musiqiçi və incəsənət xadimləri, məktəbin musiqi müəllimləri, məktəblilər və bütövlükdə oxucular dəvət oluna bilərlər.

***Kitabxanaçı:*** Azərbaycanın tanınmış musiqiçisi, pianoçu, sənətşünaslıq elmləri namizədi, Azərbaycan SSR əməkdar incəsənət xadimi Gülarə Əziz qızı Əliyevanın yaradıcı fəaliyyəti ən çox "Dan ulduzu" ilə vüsət tapdı. 1966-cı ildən özünün təşkil etdiyi "Dan ulduzu" instrumental ansamblının rəhbəri olub. Yaratdığı "Dan ulduzu" ansamblına onun adı verilmişdir.

Gülarə xanımın rəhbərlik etdiyi "Dan ulduzu" ansamblının repertuarına ancaq peşəkar bəstəkarların mahnıları daxil ola bilərdi. Bu, bədii rəhbərin ifaçılar qarşısına qoyduğu şərt idi.

"Dan ulduzu" nun adını xalq şairi Nəbi Xəzri təklif edib. İlk çıxışından "Dan ulduzu" insanlar tərəfindən sevilir. Gülarə xanım müntəzəm məşqlərin və ansambl üzvlərinin əzmkarlığı və sənətə sevgisi sayəsində arzuladığı ansamblı yaratmaqla çox musiqi kollektivlərini, qrup və ansamblları arxada qoydu. "Dan ulduzu" tezliklə dövlət tədbirləri, konsertləri, xarici qastrol səfərlərinin bəzəyinə və aparıcı musiqi ansamblına çevrildi. Suriya, Livan, Əlcəzair, İsveçrə, Almaniya, Qvineya, Bissuada "Dan ulduzu" nun qastrol səfərinə çıxdığı dövlətlər, şəhərlər oldu. Xaricilər Azərbaycan musiqisinin Qərb musiqi alətlərində səslənməsini görüb təəccüblərini gizlədə bilmirdilər. Akif

İslamzadə, Flora Kərimova, Yalçın Rzazadə, Hüseynağa Hadiyev və s. ifaçılar “Dan ulduzu” nun solistləri oldu. 1975-ci ildə isə Zeynəb Xanlarova “Dan ulduzu” yla bir silsilə proqramla dövlət konsertlərində çıxış etdi. Məmmədbağır Bağırzadə, tarzən Zamiq Əliyev, pianoçu Həsənağa Qurbanov, qaboy ifaçısı Kamil Cəlilov ansambla dəvət edildi. Xədicə Abbasova, Şəbnəm Tapdıq, Züleyxa Mirismayılova və başqa ifaçılar “Dan ulduzu” yla məhşurlaşdılar, sevildilər. Gülarə xanım bölgələrdə oxuyan istedadlı gəncləri də kollektivə dəvət edər, onların potensial imkanlarının üzə çıxarılmasında köməkliyini əsirgəməzdi. O, müğənni Cavad Rəcəbovu Lənkərandan, Məhəbbət Kazımovu isə Laçından Bakıya dəvət edib onlarla bir neçə mahnılar yazdırmaqla ansambla dəvət etmişdi. Gülarə xanımın rəhbərlik etdiyi “Dan ulduzu” instrumental ansamblı tezliklə Azərbaycan televiziyası və radiosunun ştatına keçirilir. Bu ilk öncə kollektivə olan tamaşaçı marağının, istəyinin, tələbinin nəticəsi, sənətin qələbəsi idi. Əməkdar incəsənət xadimi, rejissor Arif Qazıyevin və ssenari müəllifi Rəfiqə Məsudun araya-ərsəyə gətirdikləri “Dan ulduzu–tale ulduzu” televiziya filmində ansamblın yaranması, Gülarə xanımın onun formalaşması yolunda çəkdiyi əziyyətlər barədə ətraflı məlumat verilir. “Dan ulduzu” ansamblının yaranması Azərbaycan musiqi tarixində yeni hadisə idi.

Gülarə Əliyeva şərəfli bir ömür yolu keçib. 1933-cü il noyabrın 17-də Əziz Əliyevin ailəsində doğulmuşdu. 1956-cı ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano və nəzəriyyə fakültəsini əla qiymətlərlə bitirmiş, 1966-cı ildə “Bəstəkar F.Əmirovun yaradıcılığı” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. 1967–1989-cu illərdə M.Əliyev adına İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti)

musiqi kafedrasının müdiri olmuşdu. Əvvəlcə Azteleradio, sonra isə S.Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində konsertmeyster işləmişdir. 1968-ci il Gülarə xanımın həyatında, taleyində dönüş ili olmuşdur. Həmin ildə “Dan ulduzu” kamera–instrumental ansamblı fəaliyyətə başlamışdı. O, düz 23 il bu kollektivə rəhbərlik etmişdir. Ömrünün sonunadək “Dan ulduzu” nu öz övladı kimi sevmiş, ondan ayrılmamışdır.

Gülarə xanım bölgələrdən də istedadlı gəncləri kollektivə dəvət edir, onların potensial imkanlarının üzə çıxarılmasında köməyini əsirgəmirdi. “Dan ulduzu” instrumental ansamblı sonradan Azərbaycan Teleradio şirkətinin ştatına keçirildi.
Gülarə xanım elə bir musiqiçi idi ki, tanınmış bəstəkarların çoxu mahnılarını, əsərlərini həvəslə ona həvalə edirdilər. Ansambl çox sevilirdi. Hər bir müğənni o zaman bu ansamblda çıxış etmək istəyirdi. O zaman bu ansamblda oxuyan müğənnilər brend sayılırdı. Seçmə müğənnilər bu ansamblda oxuyurdu. Gülarə xanımın ürəyi çox yumşaq idi. Bəzən bir o qədər populyar olmayan müğənnilər də ansamblda oxumaq istəyəndə, onlara yox demirdi.

Əməkdar incəsənət xadimi, pianoçu, mərhum Həsənağa Qurbanov onunla birgə bu ansamblda çalışmışdı. Hətta Gülarə xanımdan sonra bu ansambla rəhbərlik etmişdi. Həsənağa Qurbanov Gülarə xanımla bağlı bir kitab da yazmışdı. Doğrudur, Həsənağa müəllim çox çalışdı bu kitabı çap etdirməyə. Amma amansız ölüm Həsənağa Qurbanova bu arzusunu reallaşdırmağa imkan vermədi. Gec də olsa, “Bizim Gülarə Əliyeva” kitabı işıq üzü gördu.

Kitabda Gülarə Əliyevanın sənət dostlarının, tanınmış incəsənət adamlarının onun haqqında xatirələri yer alıb. Sənət dostları onu “Dan ulduzu” kimi əbədiyaşar insan adlandırıblar.

Gülarə Əliyeva musiqiçi və gözəl bir şəxsiyyət kimi xalqına xidmət edirdi. Bu insanda çox müsbət keyfiyyətlər toplaşmışdı. O, Azərbaycanın görkəmli professional bəstəkarlarını ansambla dəvət edir və onların əsərlərini ifa edirdi. Gənclərlə işləməyə də çox üstünlük verirdi. Gülarə xanımın faciəvi şəkildə dünyasını dəyişməsi bütün musiqisevərlər üçün böyük itki oldu.

Gülarə xanımın yeganə yadigarı Ayəndə xanım deyib: "Anam mənim xatirimdə mehriban, qayğıkeş bir insan kimi qalıb. Çox narahat insan idi. Biz bir yana gedəndə, evə dəqiq vaxtında gəlməyəndə nigaran qalar, balkona çıxıb gözləyərdi. Bəzən təzyiqi yüksələr, halı pisləşərdi. Evimiz qonaq–qaralı olardı, ansamblın məşqlərini də evdə edərdilər. O, musiqi ilə yaşayırdı. Həmişə fəxrlə deyərdi ki, məndən Üzeyir Hacıbəyov imtahan götürüb. Konservatoriyanın iki-bəstəkarlıq və fortepiano ifaçılığı fakültələrini bitirmişdi. O dövrdə belə bir ansambl yaratmaq yenilik idi, xalq çalğı alətləri ilə klassik musiqi alətlərinin sintezini ilk dəfə anam yaratmağa nail olmuşdu. Tofiq Quliyev, Emin Sabitoğlu, Oqtay Kazımov, Elza İbrahimova, Ramiz Mirişli, Oqtay Rəcəbov və bir sıra digər tanınmış bəstəkarla işləyirdi. Onların hamısı bizim evdə olmuşdular…"

Ayəndə xanım anasını onlardan ayıran faciəvi günü böyük kədərlə xatırlayır: "1991-ci il iyulun 27-si idi. Atamı Moskvaya müayinəyə yola salmağa hazırlaşırdıq. Ansamblın violonçelçisi Minirə xanım da bizdə idi, anamla çox yaxın olduqlarından ona kömək etmək üçün gəlmişdi. Atam yol çantasını götürüb evdən çıxmaq istəyəndə mən və bacım Nuridə də onunla çıxdıq. Nuridə çox aşağı düşmədi, atamı əlində tutduğu "Quran" kitabının altından keçirib, geriyə döndü. Mən isə blokun qapısınadək onu ötürdüm. Bu dəm dəhşətli bir səs eşitdim, tez geriyə, evə qaçdım ki, anam məni

görüb sakitləşsin ki, sağ-salamatam. Otağa girib balkona çıxmaq istədim. Balkondan əsər-əlamət qalmamışdı…”
Xatırladaq ki, Gülarə Əliyeva 1991-ci ildə həyat yoldaşı, kulturoloq Adil Adilovu, Moskva klinikasına müalicəyə yola salarkən kiçik qızı Nuridə və “Dan ulduzu” ansamblının istedadlı violonçelisti Minirə ilə birgə eyvana çıxır və köhnə eyvanın uçması nəticəsində həlak olur.

İstedadlı pianoçu, Əməkdar İncəsənət xadimi Gülarə Əliyevanın 90-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, **“Dan ulduzu kimi əbədiyaşar insan”** adlı oxucularla söhbətdir. Tədbir yuxarı sinif şagirdlərinin iştirakı ilə keçirilir. Tədbirə musiqiçi, bəstəkar, musiqi müəllimlərini və bütövlükdə gənc nəsil nümayəndələrini dəvət etmək məqsədyönlüdür. Kitabxanaya toplaşan iştirakçılar kitabxananın oxu zalına dəvət edilir. Kitabxanaçı ilk olaraq gələn qonaqları salamlayır və istedadlı pianoçu, Əməkdar İncəsənət xadimi haqqında məlumata keçid alır.

O bu boyda bir cahanı yaradıb,
Yeri-göyü, asimanı yaradıb,
İnsan onu, o insanı yaradıb,
Bu dünyanın əlifbası-məhəbbət,
Ən ilk nəğmə, ən ilk yazı məhəbbət.

Dəyərli qonaqlar, bu gün sənətinə xüsusi məhəbbət və sevgi ilə bağlanan, xalqın sevilən qızı, bir istedadlı Azərbaycan qadını-Gülarə Əliyevanın yubileyidir.
... Deyirlər, insan doğulan an səmada yeni bir ulduz yaranır, parlayır... Bəxt ulduzu...
Və o ulduz bir də həmin insan dünyadan köçən anda sönür...
O da parlaq ulduz altında dünyaya gəlmişdi. Ulduzu da, necə deyərlər, üzünə, bəxtinə gülmüşdü. Elə əsl ulduz həyatı yaşamışdı. Amma tək özü yaşamamışdı, başqalarına da yaşatmışdı. Çünki məhz onun yaratdığı "Dan ulduzu”

Azərbaycanın musiqi səmasında parlaq ulduza çevrilərək onlarla istedadlı gəncin sənət yoluna işıq tutdu. Onları xalqa tanıtdı, məşhurlaşdırdı, sevdirdi, ulduz etdi.
XX əsr Azərbaycan musiqisinə ulduz çələngi bəxş etdi. Vətəninin adını xarici ölkələrdə tanıtdı, mədəniyyətini layiqincə təmsil etdi, musiqisinə öz töhfələrini verdi. Bununla da adını qızıl hərflərlə tariximizə həkk etdi. Dünyada klassik və xalq çalğı alətlərinin sintezindən ibarət ilk ansamblın yaradıcısı, Şərqdə ilk qadın ansambl rəhbəri kimi... Azərbaycanın görkəmli musiqiçisi, pianoçusu, sənətşünaslıq elmləri namizədi, əməkdar incəsənət xadimi kimi...
Və sadəcə əfsanəvi "Dan ulduzu” ansamblının yaradıcısı, bədii rəhbəri Gülarə Əliyeva kimi...
O, 57 yaşında həyata gözlərini yumdu. Yaşasaydı bəlkə də daha neçə-neçə sevilən nəğmələrin, musiqi nömrələrinin müəllifi olacaqdı... Yaşasaydı...
*Kitabxanaçının çıxışından sonra tədbir iştirakçıları öz çıxışına keçid alır, musiqiçilər onunla bağlı xatirələrdən söhbət açır.*
Unudulmaz ansanbl yaradıcısı Gülarə Əliyevanın 90-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ***“Şərqdə ilk qadın ansambl rəhbəri”*** adlı *ədəbi-bədii gecədir.* Gecədə Azərbaycanın görkəmli şair və musiqişünasları, bəstəkarlar, sənət adamları, müğənnilər, oxucular, məktəblilər toplaşır. Qonaqlar Gülarə Əliyevanın şəkilləri, onun haqqında deyilmiş sitatlar yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Gülarə Əliyevanın həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Sonra isə ədəbi-bədii gecəyə "Dan ulduzu" ansamblı — Xatirə (1988) — musiqi: Sevil Əliyevaya aid mahnı ilə start verilir. Gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşır.

***I Aparıcı:*** Hər kəs yer üzünə bir missiya ilə gəlir. Onun da çiyinlərinə Yaradan o missiyanı qoymuşdu. Yazı Yazan taleyini, qədərini notlarla yazmışdı sanki, musiqini ruhuna, qanına, canına hopdurmuşdu... Yoxsa həkim ailəsində ilk musiqiçi o olmazdı...
Gülarə xanım görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Evin şən, dəcəl qızı idi. Əslində, musiqiçi olacağı hələ uşaq yaşlarından evdə hamıya agah olmuşdu. Çünki bütün günü evdə həm oxuyar, həm oynayardı. Şıltaqlığı ilə ailədə hamının üzünü güldürərdi. Maraqlı uşaqlıq illəri olub. Həmin çağlarını xoş xatirələrlə anardı. Atasını çox sevirdi. Özü də zahirən ona çox bənzəyirdi. Çox mehriban ailə olublar. Gəliş-gedişli, qonaq-qaralı... Azərbaycanın o dövr görkəmli ziyalılarının çoxu onlara gələrmiş. Evdə daim yaradıcı, elmi söhbətlər edilərmiş. Gülarə xanım o cür mühitdə böyümüşdü.
***II Aparıcı:*** Ailədə hamı həkim idi - atası, bacısı Zərifə, qardaşı Tamerlan. Sonradan evin sonbeşiyi Cəmil də bu ailə ənənəsini davam etdirdi. Gülarə Əliyeva da tibb sahəsində bilgili idi. Ancaq ailədə yeganə adam idi ki, musiqiyə yönəldi. Hamı da bu qərarını anlayışla qarşıladı. Çünki necə istedadlı olduğunu görürdülər. Və o istedadın qarşısına sipər çəkmək sadəcə ədalətsizlik olardı. Əliyevlər ailəsində isə ədalətsizlik əsla ola bilməzdi.

Peşəkar musiqiçi olmağı qarşısına məqsəd qoyan Gülarə Əliyeva həyat missiyası uğrunda ilk addımlarını atmağa başlayır. Azərbaycan Dövlət Konservatoriyasına daxil olmaq üçün imtahan verir. Üzeyir Hacıbəyli kimi dahidən "hə” cavabı alıb, ali təhsilə başlayır. Özü də iki fakültədə...
***I Aparıcı:*** Gülarə Əliyeva istedadlı pianoçu idi. Mükəmməl musiqi duyumu vardı. Amma musiqi bəstələmək üçün musiqişünas olmaq lazım idi. Ona görə Gülarə Əliyeva konservatoriyanın fortepiano və tarix-nəzəriyyə fakültəsində

paralel təhsil alıb. Unudulmaz tələbəlik illəri olub. O dövrün tanınmış müəllimlərindən dərs alıb.
O, "Bəstəkar Fikrət Əmirovun yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 23 il İncəsənət İnstitutunun Musiqi nəzəriyyəsi kafedrasına rəhbərlik edib, o cümlədən institutun elmi şurasının üzvü olub. 1969-cu ildən dosent idi, elmi-pedaqoji fəaliyyət göstərib. Əvvəlcə Azteleradio, sonra isə S.Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində və Əhsən Dadaşovun ansamblında konsertmeyster işləyib. Çoxsaylı əsərlər bəstələyib.
***II Aparıcı:*** Bütün bunlarla yanaşı istedadlı musiqiçi Gülarə Əliyevanın içindəki, ruhundakı melodiya, avaz dinmək bilmirdi. Musiqidə yenilik etmək coşqusu getdikcə daha da alovlanırdı. Onu öz missiyasına doğru aparırdı. Nəhayət, 1968-ci ildə Gülarə Əliyeva nəinki Azərbaycanda, dünyada bir ilkə imza atır. Klassik və milli alətlərin sintezindən ibarət ansambl yaradır...
Bu, o dövr üçün bir inqilab sayılırdı. Həm də cəsarət tələb edirdi. Çünki elə bir sintez heç vaxt olmamışdı. Necə qarşılanacaqdı? Seviləcəkdimi? Gülarə xanım bu yeniliyi etdi. Və çox gözəl qarşılandı, dərhal da sevildi. Xeyli vaxt idi məşqlər gedirdi, amma hələ də ansambla ad qoyulmamışdı. Ad üzərində çox düşündülər, var-gəl etdilər, müxtəlif fikirlər səsləndi.

AzTV-nin o vaxtkı sədri Nəbi Xəzri " Dan ulduzu" adını təklif etdi. Anamın da çox xoşuna gəldi. Beləliklə, ansambl AzTV-nin nəzdində "Dan ulduzu" adı ilə fəaliyyətə başladı. Qeyri-adi ansambl idi. Musiqi səslənən kimi elə ilk notlardan hamı bilirdi ki, bu, "Dan ulduzu"nun ifasıdır. Çünki fərqli, standart ifalardan seçilən səslənmə, musiqi idi. Anamın ürəyindən keçən, ruhundan qopan melodiyalar idi.
***I Aparıcı:*** Tezliklə "Dan ulduzu" Azərbaycan musiqisində ulduz kimi parlayır. Ansamblın konsertləri efirləri, tədbirləri bəzəyir. Gülarə Əliyeva ansambla daha çox

konservatoriyanın tələbələrini, istedadlı, həvəsli gəncləri seçir. Leyla Şərifova və Yalçın Rzazadə ilk solistlər olur. Sonradan bu ansamblla kimlər çıxış etmədi ki?! Şövkət Ələkbərova, Elmira Rəhimova, Flora Kərimova, Akif İslamzadə, Hüseynağa Hadıyev, Səkinə İsmayılova, Məmmədbağır Bağırzadə, Məhəbbət Kazımov, Aybəniz Haşımova... Ansamblın üzvləri qarşısına isə bir tələb qoyulmuşdu: yalnız peşəkar bəstəkarların mahnıları səslənməlidir...

...Həmin gün - 1991-ci il iyulun 27-si adi yay günlərindən seçilirdi. Səhər həyəcanla açılmışdı. Evin sonbeşiyi Nuridə konservatoriyaya imtahan verməyə getmişdi. Axşam isə Adil Adilov xəstəxanada müalicə almaq üçün Moskvaya yola düşməliydi. Evdə qəribə bir çaxnaşma, gərginlik vardı. Bir yandan yemək hazırlanırdı, bir yandan yol çamadanı yığılırdı, digər tərəfdə qızlar imtahanın necə keçməsindən danışırdılar. Ansamblın violonçel ifaçısı Minirə Yusifli də onlardaydı, ansambla aid işlərlə məşğul idi. Məlum hadisə axşam saat 6-da baş verdi və Gülarə Əliyeva bu dünyadan çox ərkən köçüb getdi. Gülarə Əliyevanın bu dünyadakı missiyası beləcə bir faciə ilə bitdi. Musiqili ömrü son akkordlarını vurdu. Həyat melodiyası vaxtsız susdu. O ürəkdə neçə-neçə musiqilər, bəstələr doğulmamış dəfn olundu...

***II Aparıcı:*** Bu ilin noyabrında ölməz yaradıcı şəxsiyyət Gülarə Əliyevanın 90 yaşı, ansamblın yaranmasının isə 55 illiyidir. Onun adı və ölməz musiqilər illər, qərinələr keçsə belə yaddaşlardan silinməyəcək və mahnılarda yaşayacaq. Gülarə Əliyeva sənətkar və şəxsiyyət kimi buna layiqdir. O, XX əsr Azərbaycan musiqisinə öz izini qoyub, böyük işlər görüb. Şərqdə ilk qadındır ki, ansambl yaradıb və ona rəhbərlik edib. Dünyada klassik və milli alətlərin sintezindən ibarət ilk ansamblın yaradıcısıdır. Onun xidmətlərini unutmaq və danmaq olmaz.

**Ədəbiyyat siyahısı**

**Kitablarda**

**Qurbanov H**. Bizim Gülarə Əliyeva. - Bakı : Şərq-Qərb, 2013. - 144, [16] s.

**Dövrü mətbuatda**

**Elçin.** Daima təzə-tər melodiyalar... : Gülarə Əliyevanı xatırlayarkən // Mədəniyyət. - 2010. - 19 fevral. - N 13. - S. 3.

**Fərəcov S**. Musiqimizin "Dan ulduzu" : Əməkdar incəsənət xadimi, görkəmli pianoçu Gülarə Əliyeva haqqında // Mədəniyyət. - 2013. - 22 noyabr. - № 84. - S. 7.

**İbrahimova S.** Xatirələrin işığında : əməkdar incəsənət xadimi, görkəmli musiqiçi Gülarə Əliyeva haqqında // Azərbaycan. - 2013. - 21 noyabr. - № 256. - S. 10.

**Mükərrəmoğlu M.** Musiqi dünyamızın "Dan ulduzu" : Gülarə Əliyeva - 85 // Xalq qəzeti. - 2018. - 17 noyabr. - № 259. - S. 10.

**Müşfiqə.** 31 il əvvəl... : Məşhur "Dan Ulduzu" yaradıcısını itirdi // Yeni Azərbaycan. - 2022. - 27 iyul. - № 131. - S. 7.

**Nizamiqızı H.** Sönməyən ulduzun nağılı və ya "Dan ulduzu" ndan düşən işıq // Mədəniyyət. - 2012. - 11. 01. - № 1. - S. 5.

**Qurbanov H**. Ömür yarımçıq olmur : Gülarə Əliyeva haqda // Xalq qəzeti. - 2005. - 17 noyabr. - S.9.

**Qurbanqızı Z.** Dan ulduzu-tale ulduzu : " Dan ulduzu " vokal insturmental qrupu haqqında // Respublika. - 2012. - 27 sentyabr. - № 216. - S. 7.

**Şahsevənli Z.** Ayrılıq bir dənizmiş : Azərbaycan musiqiçisi, pianoçu Gülarə Əliyeva haqqında // İşıq. - 2015. - № 3. - S. 42-47.

**Filmoqrafiya**

Nəğməkar torpaq (film, 1981)

Dan ulduzu, tale ulduzu (film, 2001)

**Könüllərin Dan ulduzu - Gülarə Əliyeva**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**